1_Layout 1 30.03.2023 8:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 7 (646)

31 mart 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AVROPANIN ÜMİD YERİ AZƏRBAYCANDIR

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Avropanın ümid yeri Azərbaycandır" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

### İlham Əliyevin enerji diplomatiyası xarici investorların ölkəmizə marağını getdikcə artırır

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın əldə etdiyi mühüm geosiyasi uğurlardan biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Həyata keçirdiyi tam müstəqil siyasətlə Azərbaycanı yeni inkişaf mərhələsinə çıxaran Prezident İlham Əliyevin qlobal təşəbbüsləri, enerji layihələri həm də ölkəmizin beynəlxalq miqyasda nüfuzunu, siyasi çəkisini artırıb.

Hazırda dünyanın geosiyasi və geoiqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın əsas rol oynaması bunu təsdiq edən reallıqdır.

Azərbaycan Avropanın enerji xəritəsini tamamilə dəyişib. Bu gün Azərbaycan Avropanın enerji təminatında açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Bu prosesi dəyərləndirən İlham Əliyev deyib ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədikləri enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Çünki Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb.

Bütün bu məsələləri İlham Əliyev martın 13-də Almaniyaya işgüzar səfəri çərçivəsində Berlində bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə görüşündə də qürurla səsləndirib.

Əlbəttə ki, bunun əsas səbəblərindən biri iqtisadi müstəqillikdir. Məhz bu müstəqillik hesabına Azərbaycanın maliyyə imkanlarının artması İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının uğurla reallaşması üçün real zəmin yaradıb.



Azərbaycanın iqtisadi müstəqilliyi gücləndikcə, siyasi müstəqilliyi də möhkəmlənib, beynəlxalq nüfuzu artıb və tərəfdaşlarının sayı çoxalıb.

### Azərbaycanın qaz təchizatının kifayət qədər şaxələndirilmiş coğrafiyası var

Hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb.

Ötən ilin iyul ayının 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, Avropanın bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşündə bu sənədin imzalanmasını dəyərləndirən İlham Əliyev deyib ki, imzalanma mərasimində Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycanı Avropa üçün enerji sektorunda etibarlı tərəfdaş adlandırıb. Əlbəttə ki, Azərbaycanın nailiyyətlərinin bu cür qiymətləndirilməsi böyük şərəfdir. Həqiqətən də Azərbaycan Avropanın bir çox ölkəsini neft, neft məhsulları, neft-kimya məhsulları ilə təchiz edir.

Bəzi ölkələr artıq Azərbaycandan elektrik enerjisi və əlbəttə ki, təbii qaz almağa başlayıblar. Lakin Avropada yeni mənbələrdən təbii qaza olan tələbatın artması ilə əlaqədar hazırda Azərbaycan kəmər imkanlarını genişləndirməyi planlaşdırır. Bu, əlbəttə ki, Avropadan tələbatın artması ilə əlaqədardır.

### Azərbaycanın külək və günəş enerjisi mənbələrinin potensialı 200 qiqavata yaxındır

Prezident İlham Əliyev həmçinin Azərbaycanın Avropaya "yaşıl enerji" ixracından da söz açaraq vurğulayıb ki, ölkəmizdə külək və günəş enerjisi mənbələrinin potensialı 200 qiqavata yaxındır.

Hazırda Azərbaycan bu prosesə həm xarici sərmayədarları cəlb edir, həm də həmin enerji həcmlərini ixrac etmək məqsədilə lazımi ötürmə imkanlarını yaradır.

Dövlət başçısı bildirib ki, Qarabağ və Şərqi Zəngəzur bölgələri artıq "yaşıl enerji" zonası elan edilib. Bu ərazilərimizdə yalnız bərpaolunan enerji mənbələrindən istifadə olunacaq. Bu mənbələr nəinki həmin yerlərdə insanların və sənayenin tələbatını ödəyəcək, o cümlədən ölkənin qalan hissəsinə də xidmət edəcək.

Azərbaycanın bərpaolunan enerji potensialı hələ bununla yekunlaşmır. Prezident bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvanı da "yaşıl enerji" zonasına çevirmək planları mövcuddur.

### Azərbaycanın qaz ixracı getdikcə artacaq

Bir sözlə, Prezident bu səfər zamanı Almaniyanın aparıcı şirkətlərinin rəhbərlərinin diqqətini bir daha Azərbaycana yönəltdi. Bu ölkənin tanınmış şirkətlərinə o da bəlli oldu ki, həm Xəzər dənizinin, həm İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının, həmçinin Naxçıvanın böyük enerji potensialı var. Bu da təbii ki, böyük investorların marağını cəlb etməyə bilməz.

Xarici investorların Azərbaycanla tərəfdaşlıq etmələri ölkəmizə böyük iqtisadi dividend vəd edir. Çünki bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyularsa, bir o qədər qaza qənaət ediləcək və bu da Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Dövlətimizin əsas hədəfindən biri budur.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin enerji diplomatiyası və bu istiqamətdəki bütün layihələri ölkəmizin iqtisadi potensialını gücləndirir, eləcə də neft-qaz sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan enerji ehtiyatlarının ixracı sahəsində milli maraqlara tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən siyasət həyata keçirir. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim xüsusi maraq göstərirlər və ölkəmizin mövqeyi ilə daha çox hesablaşırlar.

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub, sonrakı dövrdə isə həmin torpaqların özgəninkiləşdirmə prosesinə başlanılıb.

Qısa müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olublar. Süni ərazi bölgüsü, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması, Azərbaycan xalqına qarşı soyqırım siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Azərbaycan torpaqlarında "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün erməni xalqının tarixinin saxtalaşdırılmasına başlanılıb.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçiriblər. Bakıdan başlanan kütləvi qırğınlar Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə edib. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər bu dəfə öz mənfur niyyətlərini bolşevik bayrağı altında reallaşdırmağa çalışıblar. 1918-ci ilin mart ayından etibarən Bakı Kommunası tərəfindən əksinqilabçılarla mübarizə şüarı altında Bakı quberniyasının azərbaycanlılardan təmizlənməsi planı gerçəkləşdirilib.

Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan Şamaxı, Quba və digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilib və Nazirlər Şurası iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul edib. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb.



1919 və 1920-ci illərin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilib. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər tədqiq edilməsinin və hadisələrə müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdikləri soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni fakt və sənəd toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib.

2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. 2007-ci ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılıb, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımla bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıblar.

Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

**Azərbaycan xalqı və dövləti soyqırım qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.**

**President.az saytının materialları əsasında hazırlanıb.**

2_Layout 1 30.03.2023 10:21 Page 1



# SUBAY HƏRBİ QULLUQÇULARIMIZ ÜÇÜN YENİ YATAQXANA İSTİFADƏYƏ VERİLİB

Daxili Qoşunların şəxsi heyətinin sosial-məişət şəraitinin müasir standartlara uyğun yaxşılaşdırılması, mövcud infrastrukturun yenilənməsi və inkişafı istiqamətlərində çoxşaxəli tədbirlər həyata keçirilir. Bu məsələ Daxili İşlər Nazirliyinin rəhbərliyinin və Daxili Qoşunların komandanlığının xüsusi diqqət mərkəzində saxlanılır.



Məlumdur ki, istər ailəli, istərsə də subay hərbi qulluqçuların üzləşdikləri aktual problemlərdən biri mənzil məsələsidir. Hərbi hissələrimizdə inşa olunaraq istifadəyə verilən çoxmənzilli yataqxanalar sözügedən problemin müəyyən dərəcədə aradan qaldırılmasına şərait yaradır.



Martın 21-də 16076 saylı hərbi hissənin ərazisində əsaslı təmir edilərək istifadəyə verilən yataqxananın açılışı olub. Belə ki, əvvəl mövcud olmuş üçmərtəbəli köhnə əsgər kazarması yenidən qurularaq müasir yataqxana binasına çevrilib. Bina 64 yerlikdir, 25 mənzildən ibarətdir, mənzillərin 18-i birotaqlı, 7-si isə ikiotaqlıdır, bundan əlavə, mətbəx və hamam otaqları da yaradılıb. Mənzillər zəruri mebel və məişət avadanlıqları ilə təchiz edilib. Yataqxanada mərkəzləşdirilmiş istilik sistemi, yanğınsöndürmə vasitələri, kondisionerlər, su və işıq sayğacları quraşdırılıb. Rahat şəraitə malik yataqxana Daxili Qoşunların Bakı qarnizonunda yerləşən hərbi hissələrinin subay zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların yaşayışı üçün nəzərdə tutulub.



Açılış mərasimində iştirak edən Daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Novruz bayramı və yataqxananın istifadəyə verilməsi münasibətilə şəxsi heyətə komandanlığın təbrikini çatdırıb. O, qoşunlarda aparılan quruculuq işlərinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçularımıza diqqət və qayğısının təzahürü olduğunu xüsusi vurğulayıb. Komandan müavini Daxili işlər nazirinin və Daxili qoşunların komandanının rəhbərliyi altında görülən işlər nəticəsində hərbi hissələrdə müasir tələblərə cavab verən xidmət və məişət şəraitinin yaradıldığını bildirib. General-mayor F.Səmədov belə tədbirlərin xoş ovqat yaratdığını deyərək, yataqxanaya köçürülən hərbi qulluqçulara xidməti fəaliyyətlərində uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıb.

Yataqxanada mənzillə təmin olunan hərbi qulluqçular onlara göstərilən qayğıya və yaradılan şəraitə görə komandanlığa dərin minnətdarlıqlarını ifadə ediblər.

Mərasimin sonunda xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# DÖYÜŞ HAZIRLIĞININ QORUNUB SAXLANILMASINDA XÜSUSİ TƏYİNATLI DƏSTƏNİN "PƏLƏNGLƏRİ" FƏRQLƏNİRLƏR

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlı dəstələrin hərbi qulluqçularının silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin vəzifəsini icra edən mayor Rəşad Məmmədovun sözlərinə görə, 44 günlük Vətən müharibəsində Kəlbəcər istiqamətində başlayaraq Şuşayadək şanlı döyüş yolu keçən dəstənin "pələngləri" qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə hər zaman hazırdır. Qeyd edək ki, Vətən müharibəsi zamanı dəstənin şəxsi heyətindən 11 nəfər hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb.





Artıq 18 ildir ki, hərbi xidmətdə olan zabit vəzifə borclarından irəli gələn tələblərdən danışdı, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Bununla yanaşı, hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji keyfiyyətləri də nəzərə alınır.



Mayor R.Məmmədov söylədi ki, döyüş təliminin təşkili ilə əlaqədar təsdiq olunmuş müvafiq plana əsasən, keçirilən məşğələlər dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, fəal və qətiyyətli fəaliyyətin göstərilməsi də xüsusilə diqqət mərkəzində saxlanılır.

Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif hava şəraitində məşğələlər keçirilir. Mayor R.Məmmədov təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu qeyd edərək, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələrin öyrədildiyini bildirdi.

Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində əzmlə çalışan dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Əziz Rüstəmov komandanlıq tərəfindən müsbət xarakterizə olunur.

Mayor R.Məmmədov, həmçinin dəstənin şəxsi heyəti ilə keçirilən praktiki təlim və məşğələlər zamanı fərqlənən hərbi qulluqçuların adlarını da çəkməyi unutmadı. Belə ki, baş çavuş Yasin Qasımov, Elşad Daşdıyev, çavuşlar Cavidan Əliyev, Cavidan Həsənov, əsgər Rəşad Səfərov verilən tapşırıqların icrasında fərqlənirlər.

**kapitan Nigar Ağayeva**

# AYIQ-SAYIQLIQ, ÇEVİKLİK VƏ CƏSARƏT VACİB KEYFİYYƏTLƏRDİR

67987 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür. Başlıca vəzifəsi hərbi hissənin döyüş bayrağının, anbarların, avtomobil və zirehli texnikanın saxlandığı parkın etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan bölüyün şəxsi heyəti qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirir.



Bölük komandiri kapitan Zeynal Cəfərov bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirir.

Xidmətin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edildiyini bildirən kapitan Z.Cəfərov söylədi ki, xidmətdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu kapitan Vasif Hüseynov xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbətlər aparır.

Bölük komandiri xidmətin aparılmasında vacib olan şərtləri diqqətə çatdırdı: "Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Bununla yanaşı, postda xidmət aparan zaman saatların ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi də başlıca amildir".

Hərbi şəhərciyin müdafiə və mühafizəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edən bölük komandiri bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirildiyini bildirdi. Onların sağlamlığı, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən kapitan Z.Cəfərov, eyni zamanda, keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi.

Postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, həmçinin asudə vaxtın səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bölük komandiri vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan leytenant Ariz Rüstəmov, kiçik çavuş Fərid Babayev və əsgər Samir Şamayevin adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

# TƏLİMLƏRİN KEYFİYYƏTLİ TƏŞKİLİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ ƏSASIDIR

67987 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri kapitan Rəşad Məmmədovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyəti hərbi hissənin komandanlığı tərəfindən müsbət qiymətləndirilir.



Kapitan R.Məmmədov bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumunun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Dəstəyə təhkim olunmuş döyüş texnikasının, silah-sursatın və müxtəlif əmlakların vəziyyətinin diqqətdə saxlanılması vacib amillərdir.



Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, intizamına, dəstədə daxili qayda-qanuna riayət edilməsinə cavabdehlik daşıyan komandir hərbi qulluqçuların öz vəzifələrinin icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını nəzərimizə çatdırdı.

Həmçinin şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi, atəş, fiziki, taktiki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, o cümlədən sıra və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlər zamanı qrup və yarımqrup komandirlərinin metodiki cəhətdən biliklərinin artırılmasına, hərbçilər tərəfindən mövzuların dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir.

Dəstə komandiri keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, funksional vəzifələrinin öhdəsindən layiqincə gələrək yoldaşlarına nümunə olan hərbi qulluqçulardan baş leytenant Nazir Fəttayev, baş çavuş Müzəffər Gülbalayev, çavuş Şaiq Məhərrəmovun adlarını çəkdi. Xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə və qazandığı nailiyyətləri qoruyub saxlayacağına əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 30.03.2023 9:08 Page 1



# KURSANTLAR HƏRBİ QƏNİMƏTLƏR PARKI İLƏ TANIŞ OLUBLAR

44 gün davam edən və Azərbaycan xalqının parlaq qələbəsi ilə başa çatan Vətən müharibəsi tariximizin ən şanlı səhifələrindəndir. Azərbaycanın bu müharibədə qazandığı qələbənin rəsmiləşməsindən bir gün sonra – 2020-ci il noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu qeyd edib. Məhz həmin il dekabrın 10-da






keçirilən Zəfər paradında isə həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, dövlət başçısı Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər nəticəsində Dənizkənarı Milli Parkın ərazisində açıq səma altında nadir park salınıb. 2021-ci il aprelin 12-də isə Hərbi Qənimətlər Parkının açılışı olub.

Martın 15-də Daxili Qoşunların Ali Hərbi Məktəbinin kursantları Hərbi Qənimətlər Parkında olublar. Ali Hərbi Məktəbin tərbiyə işləri üzrə bölməsinin təlimatçısı kapitan Sarvan İlyasov kursantları Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qazandığı qələbəyə həsr olunmuş parkda nümayiş etdirilən maraqlı eksponatlarla tanış edib.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinə "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə erməni işğalçılarının 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvəsi isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdı. Ermənilərin qoyub qaçdıqları atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri - Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İskəndər M" raketinin qalıqları da var.

Qənimətlər sırasında saz vəziyyətdə olan KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da nümayiş etdirilir. Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.



Xatırladaq ki, Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr parkın ərazisindəki videozalda izləyicilərə təqdim edilir.



Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduqları mühəndis sistemlərindən idi. 30 ilə yaxın vaxt ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Bir sözlə, Hərbi Qənimətlər Parkı qazanılan tarixi zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə təqdim edilən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri göz önündə canlandırmağa geniş imkan yaradır.

**Mətbuat xidməti**

# YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ HƏYATİ ƏHƏMİYYƏT KƏSB EDƏN AMİLLƏRDƏNDİR

2023-cü il ərzində yol-nəqliyyat hadisələrinin qarşısının alınması üzrə tədbirlər planının icrası ilə əlaqədar olaraq martın 16-da 99713 saylı hərbi hissədə "Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və bədbəxt hadisələrin qarşısının alınması" mövzusunda məşğələ keçirilib. Plana əsasən təşkil olunan məşğələyə Binəqədi Rayon Dövlət Yol Polisi Şöbəsinin inzibati tədbirlər üzrə inspektoru polis baş leytenantı Pərviz Allahverdiyev rəhbərlik edib.

Məşğələnin əvvəlində hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elsevər Fətəliyev hərbi qulluqçulara mövzu ilə bağlı komandanlığın tələblərini çatdıraraq, öz tövsiyələrini də bildirib. Qeyd edək ki, bu cür məşğələlərin




keçirilməsində məqsəd yol hərəkətinin düzgün təşkili ilə bağlı profilaktik tədbirlərin təbliğ olunmasıdır.

Polis baş leytenantı P.Allahverdiyev hərbi hissədə fərdi nəqliyyat vasitələrinin sahibləri, maşın rəhbərləri və sürücü olan hərbi qulluqçulara "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişiklik, əlavələr, yol nişanlarının tələblərinin pozulması hallarına görə İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan inzibati cəzalar barədə məlumat verib, onları mövzu üzrə maarifləndirib. İnspektor həmçinin yol hərəkəti qaydalarını pozmağa meyilli hərbi qulluqçuların müəyyən edilməsi üçün mütəmadi olaraq önləyici tədbirlərin görülməsinin zəruriliyini vurğulayıb, onlarla fərdi söhbət aparılmasının və yol hərəkəti zamanı mülki vətəndaşlara nümunə olmalarının aşılanmasının vacibliyini diqqətə çatdırıb.

Məlumat üçün bildirək ki, yol hərəkətinin təhlükəsizliyi mövzusunda bu cür məşğələlər qoşunların digər hərbi hissələrində də dislokasiya olunduqları rayonların Dövlət Yol Polisinin vəzifəli şəxsləri tərəfindən keçirilib.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ HİSSƏDƏ DİNİ MAARİFLƏNDİRMƏ MÖVZUSUNDA TƏDBİR TƏŞKİL OLUNUB

Martın 15-də 99713 saylı hərbi hissədə "Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi Saleh Aslanov və Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Vüqar Səmədov iştirak ediblər.

Şəxsi heyətin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Elsevər Fətəliyev mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin məsləhətçisi S.Aslanov bildirib ki, müasir dünyada dini radikalizm, onun fəsadları olan eks-



tremizm və terrorizm nəticəsində milyonlarla insan ya öldürülüb, ya da öz doğma vətənindən didərgin düşüb.

Dünyada baş verən bu cür neqativ hadisələrin fonunda tolerantlıq və multikulturalizm mədəniyyətinin inkişaf etdirilməsinin vacibliyinə diqqət çəkən S.Aslanov söyləyib ki, bu baxımdan ölkəmiz dünya üçün bir nümunədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi V.Səmədov öz çıxışında dini maarifləndirmənin aktual məqamlarına toxunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ QOSPİTALDA NOVRUZ ƏNƏNƏLƏRİNƏ HƏSR OLUNAN MÜSABİQƏ KEÇİRİLİB

Mart ayının 13-dən 18-dək Daxili Qoşunların 12576 saylı hərbi hissəsində hissə komandirinin müvafiq əmrinə əsasən, "Vətənim Azərbaycanı tanıyaq - 5" layihəsi çərçivəsində "Novruz milli sərvətimdir" adlı müsabiqə keçirilib. Layihənin əsas məqsədi hərbi qulluqçuların Vətənə, millətə, dövlətə sadiqlik ruhunda tərbiyə edilməsi, qədim el bayramının gənc nəslə tanıdılması, nənə-babalarımızın Novruzla bağlı bizlərə miras qoyduqları ritualların və adət-ənənələrin bir daha xatırlanması olub.



Novruz ölkəmizə yazın gəlişini simvolizə edən, çox qədim zamanlardan xalq arasında bir ənənəyə çevrilən qədim xalq bayramıdır. 70 ildən çox tərkibində yaşadığımız sovet imperiyası öz ideologiyasına uyğun təbliğat apararaq xalqımızı tarixi keçmişindən, milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq istəsə də, buna əsla nail ola bilməyib. Müstəqillik əldə etdikdən sonra bu bayram dövlət səviyyəsində qeyd olunmağa başlayıb. Minilliklər içərisindən keçib gələn bu qədim el bayramı tarix boyu qadağalara və təqiblərə məruz qalsa da, öz gözəlliyini indi də saxlamaqdadır.



Müsabiqəyə qospitalın 13 şöbə və xidməti komandalar şəklində, müxtəlif şərti adlarla qatılaraq öz bacarıqlarını sərgiləyib, doğma el bayramına aid olan gözəl təamlar: şəkərbura, paxlava, qoğal, badambura, həmçinin bayramı simvolizə edən süfrələr, Novruz ornamentləri hazırlayaraq münsiflər heyətinə təqdim edib.



Komandaların qiymətləndirilməsi əsasən onların say tərkibinə, geyiminə, gigiyenik və sanitar qaydalara riayət olunmasına, bayram süfrəsinin dizaynına, qədim köklərə bağlı olan Novruzu nə dərəcədə özündə ehtiva etməsinə görə həyata keçirilib. Hər komanda sadalanan kateqoriyalar üzrə 10 ballıq sistemlə qiymətləndirilib.

Müsabiqənin nəticələrinə əsasən, "Aslanlar" şərti adı altında yarışan hərbi hissənin qərargahı 500 balla 1-ci yerə, "Bahariyyə" şərti adı altında yarışan funksional diaqnostika şöbəsi 495 balla 2-ci yerə, "Odlar yurdu" şərti adı altında yarışan hərbi hissənin maddi-texniki təminat xidməti 493 balla 3-cü yerə layiq görülüb.

Bu cür əyləncəli müsabiqələrin hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərməsi nəzərə alınaraq, gələcəkdə də bu kimi tədbirlərin davamlı olaraq təşkil olunub keçirilməsi planlaşdırılır.

**kapitan Nigar Ağayeva**

4_Layout 1 30.03.2023 11:04 Page 1



# HƏRBİ HİSSƏDƏ NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL OLUNUB

Mart ayının 16-da 17072 saylı hərbi hissədə birgə tədbirlər planına əsasən, Gəncə Şəhər Hərbi Prokurorluğunun əməkdaşlarının iştirakı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Şəxsi heyətdə ruh yüksəkliyinin artırılması məqsədilə təşkil olunmuş mərasimdə Respublika Hərbi Prokurorluğunun nümayəndəsi ədliyyə polkovniki Nihad Şirəliyev, Gəncə şəhər hərbi prokuroru ədliyyə polkovniki Şöhrət





Qəhrəmanov və Gəncə Şəhər Baş Polis İdarəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi polis mayoru Cabbar Məmmədov qonaq qismində iştirak ediblər.

Mərasimi açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İramin Məsimov qonaqları və şəxsi heyəti Novruz bayramı münasibətilə təbrik edib, iştirakçılara tədbirin planını çatdırıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti-döyüş tapşırığını yerinə yetirərkən həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi hissənin şəxsi heyətinə təbrik və tövsiyələrini çatdırmaq üçün söz ədliyyə polkovniki N.Şirəliyevə verilib. O, şəxsi heyəti salamlayaraq, bayram münasibətilə təbrik edib, hər bir əsgərə Vətənə layiq, dövlət və dövlətçiliyimizə sədaqətli hərbi qulluqçu olmağı arzulayıb. Qonaq dövlətimizin inkişafının, xalqımızın rifah halının yüksəlməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb. N.Şirəliyev dünya miqyasında ölkəmizin tanınmasını təmin edən dahi şəxsiyyətin Azərbaycan xalqının ürəyində, yaddaşında silinməz iz buraxdığını, xalqına sadiq rəhbər kimi qəlblərdə daim yaşayacağını sözlərinə əlavə edib. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində gündən-günə güclənən Daxili Qoşunların ölkədaxili sabitliyin təmin olunmasında göstərdiyi layiqli xidmətini qeyd edərək, bu hərbi qurumda komandirlərlə şəxsi heyət arasındakı münasibətlərin düzgün tənzimləndiyini bildirib.

Sonra xidməti-vəzifə borclarının icrasına layiqincə yanaşdıqlarına, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə, eləcə də Novruz bayramı münasibətilə bir qrup hərbi qulluqçu "Qiymətli hədiyyə" ilə mükafatlandırılıb.

Rəsmi hissə başa çatdıqdan sonra bayram tədbiri Gəncə Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi konsert proqramı ilə davam etdirilib.

**kapitan Nigar Ağayeva**

# AZYAŞLI UŞAQLARIN NOVRUZ BAYRAMI COŞQUSU

Novruz Azərbaycan xalqının mədəniyyətini, mənəvi dəyərlərini, folklorunu, milli varlığını özündə əks etdirən və dünyaya tanıtdıran qədim el bayramıdır. Novruz bir çox Şərq xalqının bayramı olsa da, Azərbaycanda daha təntənəli və özünəməxsus şəkildə qeyd edilir. 2009-cu il sentyabrın 30-da Novruz bayramı UNESCO-nun Qeyri-Maddi Mənəvi İrs siyahısına daxil edilib, 2010-cu il fevralın 23-də isə BMT-nin 64-cü Baş Assambleyasının iclasında hər il martın 21-i günü "Beynəlxalq Novruz Günü" elan olunub.

Hər il olduğu kimi, bu il də Daxili Qoşunlarda bayram münasibətilə tədbirlər təşkil edilib. Martın



16-da 25031 saylı hərbi hissənin ərazisində fəaliyyət göstərən uşaq bağçasında Novruz şənliyi keçirilib. Əlbəttə, körpə balaların diqqətdən kənarda qalmaması artıq bir ənənə halını alıb.

Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlanan, hərbi qulluqçularımızın azyaşlı övladlarının qatıldıqları şənlikdə Bahar bayramının mahiyyəti, qədim tarixi barədə məlumat verilib, təbriklər çatdırılıb. Daha sonra musiqi nömrələri ilə davam edən tədbir nur çöhrəli övladlarımızın bayram adət-ənənəsini əks etdirən səhnəcikləri, yaz fəslinin gəlişinə həsr olunmuş şeirləri və rəqsləri ilə yaddaqalan olub.

Qeyd edək ki, hər il Daxili Qoşunların komandanlığının diqqət və qayğısı ilə hərbi hissələrimizdə, eləcə də uşaq bağçamızda keçirilən bayram şənlikləri şəxsi heyətin ürəyincə olur. Bayram tədbirlərinin belə təmtəraqla keçirilməsi hərbi qulluqçularda ruh yüksəkliyi yaradaraq, eyni zamanda, adət-ənənələrimizin təbliğinə, milli-mənəvi dəyərlərimizin aşılanmasına xidmət edir.

**25031 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# AĞ ÖLÜMƏ - NARKOMANİYAYA YOX DEYİRİK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və



onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının Daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16 avqust 2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə Quru Qoşunları növbəti ATAK FAZA-2 helikopterini təhvil alıb

TUSAŞ şirkətinin istehsal etdiyi FAZA-2 konfiqurasiyalı növbəti T-129 ATAK döyüş



helikopteri Türkiyə Quru Qoşunları Komandanlığının inventarına daxil edilib. Bu barədə "Poliqon" Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verib.

Nazirlikdən sonuncu T-129-un təhvil alınması ilə birlikdə Quru Qoşunlarının inventarına daxil edilən ATAK-ların sayının 58 ədədə yüksəldiyi bildirilib.

### ABŞ ordusu çoxməqsədli AMPV zirehli maşınlarından yararlanmağa başlayıb

ABŞ ordusu köhnəlmiş "M113" zirehli personal daşıyıcılarını əvəz etmək üçün "BAE Systems" şirkətinin istehsalı olan çoxməqsədli zirehli maşınlarından (AMPV - "Armored



Multi-Purpose Vehicle") yararlanmağa başlayıb. Ordu.az xəbər verir ki, bu barədə "Army Recognition" nəşri məlumat yayıb.

Nəşrin məlumatına görə, yaxın iyirmi ildə AMPV-nin ümumi tədarükünün təxminən üç min maşın olacağı gözlənilir.

*NÜMUNƏVİ XİDMƏT*

# İSTEDADLI TRUBA İFAÇISI

Musiqi bir incəsənət növü kimi hərbi qulluqçuların vətənpərvərlik əqidəsinin, mədəni-estetik dünyagörüşünün formalaşdırılmasında vacib rol oynayır. Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestri keçirilən tədbirlər zamanı öz çıxışları ilə hərbi qulluqçularımızda xoş ovqat yaradır. Repertuarında hərbi marşlara, vətənpərvərlik ruhunda mahnılara üstünlük verən hərbi orkestr peşəkar musiqiçilərdən təşkil edilib.

Nümunəvi göstərici hərbi orkestrdə konsertmeyster gizir Mehman Kərimov istedadlı musiqiçilərdən biridir. O, dünyanı dərk edəndən bu günə kimi musiqi ilə yaşayır və yaradır. 1986-cı ilin noyabr ayının 15-də Sumqayıt şəhərində anadan olub. 1993-cü ildən 2002-ci ilədək Yaşar Şəfiyev adına Oğuz rayonu Xalxal kənd orta məktəbində təhsil alıb. Musiqiyə marağı olan Mehman musiqiçi kimi yetişmək arzusunu reallaşdırmaq üçün 2002-ci ildə Soltan Hacıbəyov adına Musiqi Texnikumuna qəbul olunub. 2006-cı ildə truba ifaçısı ixtisasını bitirərək, 2006-cı ilin aprel ayından 2007-ci ilin oktyabr ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2014-cü ilin yanvar ayında "kiçik çavuş" hərbi rütbəsi verilməklə Nümunəvi göstərici hərbi orkestrdə solist vəzifəsinə təyin edilib. 2018-ci ildən isə "kiçik gizir" hərbi rütbəsi verilməklə hazırkı vəzifəyə təyin olunub.



Hərbi musiqiçi kimi öz bacarığını təkmilləşdirməyi qarşısına məqsəd qoyan gizir M.Kərimov orkestrdə xidmətdə olduğu üçün fəxr etdiyini bildirir. O, orkestrin repertuarındakı musiqi əsərlərini mükəmməl ifa edir, öz musiqi alətinin və cavabdeh olduğu əmlakların istismara yararlığını qoruyub saxlamağı bacarır. Peşəsinin bilicisi olmaqdan əlavə, o həm də xidmətə vicdanlı münasibətilə fərqlənən hərbi qulluqçu kimi xarakterizə olunur.

**kapitan Şahin Cəfərzadə**

# LAYİQİNCƏ XİDMƏT EDƏN RADİOTELEFONÇU

25031 saylı hərbi hissənin intizamlı və bacarıqlı əsgəri Nihat Zeyniyev üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. O, 2004-cü il martın 27-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. 2021-ci ildə Tovuz rayonu Düz Qırıqlı kəndinin 1 saylı tam orta məktəbini bitirib.

2022-ci ilin aprel ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Elə həmin ilin may ayında 25032 saylı hərbi hissədə rabitə kursuna qəbul olunub. Kursu uğurla başa vuran hərbi qulluqçumuz avqustun 13-də 25031 saylı hərbi hissənin rabitə xidmətində radiotelefonçu vəzifəsinə təyin olunub və bu gün də həmin vəzifədə xidmətini davam etdirməkdədir.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər N.Zeyniyev hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Qarşıya qoyulan tapşırıqların icrasında sayıqlıq göstərir.

Vətənə olan borcunu sona kimi ləyaqətlə yerinə yetirməyi düşünən əsgərimiz



müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək arzusundadır.

Biz də, öz növbəmizdə, ona gələcək xidmətində nailiyyətlər arzulayır, uğurlarının davamlı olmasını diləyirik.

**kapitan Şahin Cəfərzadə**

# VETERAN MİNNƏTDARLIĞI

Hörmətli redaksiya!

Mən Daxili Qoşunların sıralarında uzun illər xidmət etmişəm. Silahlı Qüvvələr və müharibə veteranıyam. Birinci Qarabağ müharibəsi zamanı respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərin iştirakçısı olmuşam. Daxili Qoşunların necə çətin sınaqlardan keçdiyinin, ötən dövrdə təqdirəlayiq inkişaf etdiyinin şahidiyəm. Vaxtilə tərkibində xidmət etdiyim qoşunların uğurları məni ürəkdən sevindirir.

Ön cəbhədə döyüşlərdə iştirakım sağlamlığıma təsirsiz ötüşməyib. Ötən illər müxtəlif tibb müəssisələrində müalicə olunmuşam. Bu yaxınlarda yenidən səhhətimdə ciddi problemlər yarandı. Özəl tibbi klinikada müayinələrdən keçdim, ancaq mənə dəqiq diaqnoz qoyulmadı. Səhhətimin pisləşdiyini görüb, Daxili Qoşunların Hərbi Qospitalının həkimlərinə müraciət etmək qərarına gəldim. Hərbi Qospitalın rəisi tibb xidməti polkovniki Şəmsəddin Heydərov müayinə və müalicəmi şəxsi nəzarətinə götürdü. Funksional diaqnostika şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Vəsilə Əsgərova, qəbul şöbəsinin rəisi tibb xidməti mayoru Ceyhun Abbasov, uroloq tibb xidməti leytenantı Kamran Baxşıyev və adlarını bilmədiyim digər həkimlər sağlamlığımın bərpası üçün öz zəhmətlərini əsirgəmədilər. Digər klinikaların səhhətimdə aşkar edə bilmədiyi problemləri doktor Vəsilə Əsgərova düzgün diaqnozla ortaya çıxartdı. Beləliklə, aldığım müalicə kursu nəticəsində qısa müddətdə sağlamlığım bərpa olundu, özümü gümrah hiss edirəm.

Hərbi Qospitalın rəhbərliyinə, həkimlərinə və digər tibb personalına mənə göstərilən qayğıya görə dərin minnətdarlığımı bildirirəm.

**Akif Məhərrəmov**
**Daxili Qoşunların veteranı**

## Allah rəhmət eləsin

99713 saylı hərbi hissənin komandanlığı kapitan Samin Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000